Azərbaycan.-2026.- 27 yanvar (№ 15).- S.4.

# Milli Məclisin Sədri Bəhreyn Krallığına səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA-nın) 16-cı Plenar Sessiyasının açılış mərasimində iştirak etmək üçün Bəhreyn Krallığına səfər edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Bəhreyn Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrinin başçılıq etdiyi parlament nümayəndə heyətini  Bəhreyn Krallığı Şura Məclisinin Sədri Əli bin Saleh Al-Saleh, Bəhreyn Nümayəndələr Şurası Sədrinin birinci müavini Abdulnabi Salman Ahmed, Nümayəndələr Şurası Sədrinin ikinci müavini Ahmed Abulvahed Qarata, Nümayəndələr Şurasının komitə sədrləri Mahmud Merza Farda, Ahmed Sabah Al-Salloom, Hasad Eid Buxammas, Mamdooh Abbas Al-Saleh, Mohamed Moosa Mohamed, deputat Zainap Abdulameer Xalil və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*